**Gülara Quliyeva**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı**
**ms.glary@rambler.ru**

## Bədii mətnin təşkilinin temporal xüsusiyyətləri

**Açar sözlər:** bədii mətn, bədii zaman, mətn zamanı, temporallıq, müəllif zamanı

**Ключевые слова:** художественный текст, художественное время, текстовое время, темпоральность, авторское время.

**Key words:** artistic text, artistic time, text time, temporality, author's time

Filoloji, o cümlədən də linqvistik tədqiqatlarda bədii mətnin temporal məsələlərinə, bədii zamana həsr olunmuş tədqiqat işləri ötən əsrin ikinci onilliyində yer almağa başlamışdır. Əvvəlcə M.L.Petrovski, V.V.Vinoqradov, A.Q.Seytlin, sonralar M.M.Baxtin, Q.Müller, V.Mats və başqaları bu problemə müraciət etmişlər. (Bax: 2; 3; 8; 10 və s.). Qeyd etmək lazımdır ki, V.Vinoqradov, M.Petrovski, A.Seytlin və bir çox başqaları bilavasitə bədii zamandan deyil, mətn zamanından danışmış, problemə konkret mətn daxilində baxmışlar. Təhlilə cəlb edilmiş mətnlər bir qayda olaraq, bədii əsərləri əhatə etmişdir.

Mətn dilçiliyinin sürətli inkişaf keçdiyi dövrdə, daha doğrusu, XX əsrin 70-80-ci illərində mətn zamanı daha çox diqqət mərkəzinə çəkilmiş, zamana mətnyaratma vasitəsi kimi baxılmış, nəhayət, bəzi tədqiqatçılar zamanı mətn kateqoriyası olaraq ayırmışlar. Onu da qeyd edək ki, mətn dilçiliyi bu günə qədər mətn kateqoriyaları məsələsini həll edə bilməmiş, istər mətn kateqoriyasının izahlarında, istər sayında, istərsə də təsnifində konkret nəticə əldə edilməmişdir. Mətn kateqoriyaları, ayrı-ayrı tədqiqatçıların fikirləri nəzərə alınarsa, artmaqda davam edir və bu kateqoriyalar sırasında zaman da qeyd olunur. İ.Qalperinə görə, mətnin zaman kateqoriyası kontinuum, retrospeksiya və prospeksiyanın vəhdətidir (5, s. 84).

Zamanın mətn kateqoriyası kimi fərqli təqdimatları, eyni zamanda, mətnin hissələrinə, onun yazılması, oxunmasına aid edilən zaman, həmçinin linqvistik zaman məsələləri elmi dövriyyəyə “mətn zamanı”, “kontekstual zaman”, “obraz zamanı”, “müəllif zamanı”, “oxucu zamanı”, “süjet zamanı”, “hadisə və hadisələr zamanı” kimi anlayışların daxil olmasına səbəb olmuşdur.

Z.Y.Turayeva temporallığı mətn kateqoriyası hesab edir və onu zaman münasibətlərinin ötürülməsinə xidmət edən, dil elementlərini əlaqələndirən, onları funksional və semantik cəhətdən birləşdirən münasibətlər şəbəkəsi kimi təyin edir (15, s. 86). A.V.Bondarko isə mətn zamanından bəhs edərkən semantik kateqoriyalar kompleksini ortaya qoyur. Bura temporallıq, aspektuallıq, taksis, zaman lokallaşması və zaman ardıcıllığı (временной порядок) kimi kateqoriyaları daxil edir (4, s. 24-25).

Ümumiyyətlə, temporallıq həm daha yüksək tərtibli, həm də mətnin müstəqil kateqoriyası kimi təqdim olunur. Temporallıq zamanın dil vasitələri ilə əks etdirmək üçün təbii dildə istifadə olunan qrammatik zamanı özünə tabe edən daha yüksək ranqlı kateqoriyadır (14, s. 36).

M.N.Levçenkoya görə, temporallıq mətnin müstəqil kateqoriyası olub öyrənilən mətnin bütün eksplisit və implisit zaman göstəricilərini onların funksional və semantik ümumiliyinə əsasən əhatə edir (11, s. 21).

İ.Tahirov temporallığı müxtəlifsistemli dillərin materialları əsasında tədqiq edərək və onunla bağlı elmi-nəzəri fikirləri nəzərdən keçirərək göstərir ki, "temporallıq zaman anlayışı ilə əlaqədar olan hər bir şeyin müəyyən vasitə və üsullarla dildə ifadə edilməsidir. Həmin vasitə və üsullar isə çox çeşidlidir. Belə ki, zaman anlayışı dildə şəkilçilər, sözlər, söz birləşmələri və cümlələrlə ifadə oluna bilər" (1, s. 36).

Tədqiqatçılar obyektiv, qrammatik və bədii zaman arasında əlaqəni aydınlaşdırmağa çalışırlar. Obyektiv və qrammatik zamanın təyin olunmasında fikir birliyi müşahidə edilsə də, bədii zaman və mətn zamanına münasibətdə bunu söyləmək çətindir. T.İ.Deşerieva bədii zamanı "kontekstual zaman" adlandırır (7, s. 112). Kontekst mətnin götürülmüş, ayrılmış və ya oxunan, canlandırılan hissəsidir. Yuxarıdakı nümunələrdə, qeyd olunduğu kimi, mətnin müxtəlif hissələrində və deməli, kontekstlərində fərqli zamanlar hərəkətdədir.

Bəzi hallarda mətnin müxtəlif yerlərində eyni bir zaman, eyni bir məkan təsvir olunur. Məsələn, Qan Turalının hekayəsində Gülgünün nəql etdiyi parçadakı "*anam mənimlə Gülnürəni Şaxta Babanın yanına apardı*", Şaxta Babanın hekayətindəki "*Bir gün iki qızla anası gəldi: qızın biri balaca idi, o birisi böyük*", Nailənin danışığındakı "*Qızlarımı götürüb apardım parka. Şaxta babaya şeir dedilər*" kontekstlərində zaman və məkan eynidir. Lakin bu kontekstlər hekayənin müxtəlif yerlərindədir.

V.V.Sıçkovun fikrinə görə, bədii zaman linqvistik (qrammatik və leksik) zamanı, mətn zamanını (bədii aləmin daxili zamanı, obrazın

zamanı) və ekstralinqvistik amilləri (müəllif zamanı və oxucu zamanı) özündə birləşdirir (13, s. 18).

Q.A.Zolotova, P.K.Onipenko, M.Y.Sidirova bədii zamanı mətn zamanı ilə eyniləşdirir. Onlar belə hesab edirlər ki, mətn zamanı orada təsvir olunan hadisələrin zamanıdır (9, s. 23). Təbii ki, bu halda mətn zamanı həmin mətndə təsvir olunan müxtəlif hadisələrin zamanları toplusu olur. Əslində, «bədii zaman» dedikdə zamanın müəyyən anı, məqamı nəzərdə tutulmamalıdır. Burada fərqli zamanlar mövcuddur. Bədii mətn «dəyişkən və axıcı» (6, s. 50) olub «hərəkət əlaməti»nə (5, s. 18) malikdir. Bədii mətn zaman münasibətlərini ifadə edən nitq kateqoriyaları ilə reallaşır (16, s. 18).

"Mətn zamanı" və "bədii zaman" anlayışlarını bir-biri ilə müqayisə etdikdə həm "mətn" sözünün, həm də "bədii" sözünün daşıdığı terminoloji mənanı nəzərdən keçirmək lazım gəlir. Mətn mürəkkəb bir tamdır. Janr və funksional üsluba aidlik baxımından müxtəlif mətnlərdən danışmaq olar. Elmi məqalə, texnikanın müəyyən sahəsinə aid təlimat da mətn kimi qəbul oluna bilər. Lakin bu cür mətnlərdə zaman, əksər hallarda fakültətivdir. Lakin bədii yaradıcılıq nümunələrində zaman və məkan aparıcıdır. Çünki bədii əsərlərdə müxtəlif hadisələr təsvir olunur. Hekayə, novella, povest, roman janrlarında müəllifin nəql etdiyi hadisələr zaman və məkan çərçivəsində baş verir. Bu hadisələrin əksəri bir-biri ilə bağlanır. Lakin mətn daxilində elə hadisələr də olur ki, onlar mətnin bir yerində açılıb qapanır və orada da qalır. Müəllifin və ya onun yaratdığı personajın bu hadisəni nə üçün nəql etməsini istənilən halda izah etmək mümkün olsa da, ümumi mətndə bu hadisənin rolu vacib əhəmiyyət daşımır.

*İncəsənət Universitetində oxuyanda ən böyük arzum Aydını oynamaq idi. Təyinatımı M. şəhərindəki teatra verəndə belə kefim pozulmadı. O qədər böyük aktyor sənətə əyalətdən başlayıb sonra parlayıb ki... Amma burada işlərim düz gətirmədi, çünki səhnəyə düz-əməlli bir tamaşa qoyulmurdu* (Qan Turalı. Şaxta babanın qətli).

Hekayədə personajın nəql etdiyi bu fraqmentdə birinci üç cümləni hadisənin başvermə vaxtına görə zaman oxunda yerləşdirsək belə bir ardıcıllıq alırıq: *İncəsənət Universitetinin aktyorluq fakültəsini bitirən "X-Şaxta Baba" M. rayonuna işə göndərilir*. Birinci cümlədə "İncəsənət Universitetində oxuyanda", "Aydını oynamaq" sintaqmları "aktyorluq fakültəsi" və ya "aktyorluq" ixtisasında oxumaq" informasiyasını formalaşdırır. Fraqmentdəki "Aydını oynamaq" arzusu, həmçinin bu fraqmentin götürüldüyü abzasdakı "Toya tamada getməyə ürəyim

gəlmirdi. Bütün boş vaxtlarımı kitab oxuyurdum. Rayon kitabxanasında əlimdən keçməmiş bir kitab belə qalmamışdı. Axırda evə internet çəkdirib kompüterdə oxumağa başladım" (QanTuralı. Şaxta babanın qətli)" kontekstində təsvir olunan hadisə ümumi məzmun üçün aparıcı deyildir. Lakin hər iki hadisənin zaman lokallaşması vardır. "Universitetdə oxuyanda ən böyük arzum Aydını oynamaq idi". Zaman personajın tələbəlik dövrünü əhatə edir. Fon biliklərinə görə bu müddətin maksimal həddi dörd-beş ildir. Lakin ən böyük arzunun oynama zamanı bəlli deyil. Hekayə bitmiş, başa çatmış əsərdir. Onun yazılma vaxtı da oxucuya bəlli deyildir və əslində, müəyyən mənada bunun oxucu üçün əhəmiyyəti yoxdur. Ümumiyyətlə, nəql olunan hadisə keçmiş zamana aiddir. Bu keçmişin özündə də keçmişə qayıtmalar vardır. Məsələn, "universitetdə oxuyanda".

Başqa personajların nəql etdikləri hadisələrdə də keçmişə qayıtmalar vardır. Məsələn:

"Gülgün:- Üç yaşım vardır.

…Nailə:- Məktəbdə yaxşı oxuyurdum.

…Elman: Əmim əsgərlikdən sonra Moskvada qalmışdı. Əvvəlcə böyük, sonra ortancıl qardaşım onun yanına getdi. Mən hələ məktəbdə oxuyurdum. Əmimin qızını alan böyük qardaşım kəndə gəlmişdi. Dedi: məktəbi qurtar, əsgərlik işini düzəldək, gəl yanımıza" (Qanturalı).

Hekayədə dörd əsas personaj var və hər personajın özünün zaman oxu qeydə alınır. Onlardan ikisinin - Şaxta-baba və Nailənin həyatı qırılır.

Hekayə dörd personajın danışdıqları üzərində qurulmuşdur. Artıq həyatda olmayanları da müəllif danışdırır. Dörd personaj həyatlarının keçmiş zamanına aid bir vaxtında baş vermiş bir hadisəyə qədər olanları nəql edirlər. Yalnız Elman bu hadisədən sonra baş verənlər barədə cüzi məlumat verir, zaman oxunu təqribən 12 il də irəli çəkir.

Oxucu zamanı onun hekayəni oxuduğu andan başlanır və ya tamamladığı andan sonra hekayənin təsiri altında qaldığı müddətə qədər davam edir.

Müəllif zamanı dörd personajdan üçünün -Şaxta baba, Nailə və Elmanın nəql etdiyi uzaq keçmişdən başlanır və Elmanın qapadığı zamanda bitməyib davam edir. Çünki Elmanın, eləcə də hekayənin son cümləsi belədir: "İndi Gülgünün 15 yaşı, Gülnurun 18…" (Qanturalı).

Mətn hissələrə parçalanır. Abzas mətnin hissələrindən biridir. Abzas daxilində bir və ya daha artıq mürəkkəb sintaktik bütöv yerləşir. Mətnin ən kiçik vahidi kimi mürəkkəb sintaktik bütövü götürsək, hər mürəkkəb sintaktik bütövdə müəyyən zaman fasiləsi vardır. Hadisə başlanır və

tamamlanır. Hadisənin başlanma və tamamlanma müddəti mürəkkəb sintaktik bütövün zamanını təşkil edir. Mətn zamanı isə mətnin oxunma prosesindəki zamanlar ardıcıllığıdır. Mətn zamanı zaman oxunda keçmişdən gələcəyə doğru axmır. Mətn zamanı dəyişkəndir, keçmişə və gələcəyə doğru müntəzəm, eləcə də sıçrayışlı hərəkət edir. Bütün hallarda personajın zamanı oxucunun zamanı ilə müqayisədə keçmiş zamandır. Deməli, personaj üçün indiki zaman olan oxucu üçün keçmiş zamandır.

Bədii zaman qeyri-xətti inkişaf edir, onun strukturu və funksionallığı müəllifin niyyəti, onun ədəbi dünyasının spesifikliyi ilə bağlıdır. Qeyd olunduğu kimi, bədii zamanın təşkiledicilərinin, subkateqoriyalarının konkret sayı verilmir. D.S.Lixaçev bədii zamanı bir-biri ilə qarşılıqlı əlaqədə olan cütlər şəklində verir. Onun fikrinə görə, bədii zamanın real zaman - təsvir olunan zaman, subyektiv zaman - obyektiv zaman, oxucu zamanı - personaj zamanı, süjet zamanı - müəllif zamanı əlaqəli cütləri vardır (12, s. 235-241).

Z.Y.Turayeva isə bədii zamanın dörd təşkiledicisini ayırmışdır: süjet, müəllif, oxucu və personajların fərdi zamanlarını ayrmışdır (15, s. 53).

Bədii zamanın təşkilediciləri haqqında tədqiqatçıların başqa fikirlərinə də rast gəlinir. Araşdırmalarda müəllif zamanı - süjet zamanı, yaşanılan zaman - fon zamanı, süjet zamanı - fabula zamanı, müəllif zamanı - personajların zamanı, tarixi zaman - məişət zamanı, səhnə zamanı və dramatik zaman, real və irreal bədii zaman, bioqrafik zaman, emotiv zaman anlayışları qeydə alınır. Bədii zamanın başqa təşkiledicilərinin də varlığının irəli sürülməsi istisna oluna bilməz.

Bütün bu fikirlərdə diqqəti cəlb edən cəhət bəzi zaman formalarının təkrarlanmasıdır. Məsələn, müəllif zamanı, oxucu zamanı, süjet zamanı, personajların zamanı kimi təşkiledicilər əsas özəyi təşkil edir. Digər formalar bədii əsərin özündən, yazılma manerasından, janrdan irəli gəlir. Fikrimizcə, bioqrafik zaman müəyyən obrazın fərdin və ya tarixi şəxsin həyatına həsr olunmuş əsərlərdə ayrılandır. Ümumi şəkildə götürüldükdə isə bədii əsərdə əsas personajların və ya qəhrəmanların bioqrafik zamanını izləmək mümkündür. Bütün bioqrafik zamanın əsərdə üzdə olması bu əsərin məqsədindən asılıdır. Məsələn, Cek Londonun «Martin Iden» əsərində Martinin bioqrafiyası bütün detallları ilə təsvir olunmasa da, onun həyatı əsərin aparıcı xəttində durur. V.Hüqonun «Səfillər» əsərində Canvalcanın həyatı da bioqrafik zaman səciyyəsi daşıyır. Anarın «Macal» povesti əsas qəhrəman - Fuadın bioqrafik zamanını müəyyən səviyyədə əhatə edir. Təbii ki, bioqrafik zaman bəzən doğulmadan başlayaraq ölümə və ya həyatın müəyyən dövrünə qədər konkret şəxs

üçün əhəmiyyətli hadisələrin xronoloji ardıcıllıqla verilməsi təsəvvürü bağışlayır. Lakin «görkəmli adamların həyatı» seriyasına aid əsərlərdə konkret tanınmış şəxsin həyatı təsvir olunur. Burada bioqrafik zaman amili aparıcıdır. Belə əsərlərdə bioqrafik zaman real zamanla uzlaşır. Bədii əsərlərdə də müəllif bir obrazı və ya qəhrəmanı seçmək, onun həyatını təsvir etmək imkanına malikdir. Belə əsərdə də bioqrafik zaman aparıcı ola bilər. Lakin qəhrəman müəllif yaradıcılığının məhsuludursa, onda bioqrafik zaman və real zaman bir-birindən fərqlənmiş olacaqdır. Bədii zaman çoxcəhətlidir. Bu, bədii mətnin təsəvvür olunan reallığının qurulması ilə əlaqədardır. Konkret bədii əsərdəki zamanın real zamanın hansı dövrünə aidliyi barədə təsəvvür yaradıla da bilər, yaradılmaya da bilər. Qan Turalının yuxarıda nümunələr verilmiş hekayəsinin konkret zamanı yoxdur. Lakin əsər bu zamanı müəyyən dövr çərçivəsinə salmağa imkan verir. Bu imkan fon biliklərindən irəli gəlir. Deyək ki, əsərdə İncəsənət Universitetini bitirməkdən söhbət getdiyindən oxucu onu belə bir Univernsitetin fəaliyyət göstərdiyi dövrə aid etmək imkanı qazanır. Əsərin qəhrəmanlarından birinin Rusiyaya iş dalınca getməsi, Rusiyada işləməsi dövrün hüdudlarını zaman oxunun hər iki tərəfindən sıxmağa zəmin yaradır. Bu dövr Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonrakı dövrdür və fon biliklərinə görə XX əsrin 90-cı illərinin ortalarından başlanır. Hekayə qəhrəmanlarından bəzilərinin yaşının verilməsi zaman oxunu yuxarıdan sıxmağa əsas verir. Elə burada da başqa bir cəhət üzə çıxır. Hekayənin yazılma dövrünü bilməyən və onu iki il bundan əvvəl oxumuş və bu gün oxuyan oxucu zaman oxunun gələcəyə doğru hərəkət edən tərəfini fərqli illərə görə sıxır. Məsələn, 2014-cü ildən və ya 2016-cı ildən. Hekayə on il bundan sonra oxunacaqsa, bədii zamanı konkret zaman istiqamətində dəqiqləşdirmə fərqli səciyyə qazanacaqdır.

Bədii zaman təsəvvür olunan zaman və ya müəllif tərəfindən yaradılan zamandır. Bir çox hallarda onun real zamanla heç bir əlaqəsi olmur. Lakin əsəri oxuyan oxucu mütləq ona müəyyən zaman hüdudunda baxır. Oxucu təsəvvüründə zamanın konturları yaranır. Lakin bu konturlar dəqiq koordinatlara malik deyildir. Əsər oxucunun yaşadığı dövrlə də səğyyələnə bilər, keçmişə, yaxud gələcəyə aidliyi ilə də diqqəti cəlb edə bilər. Y.Səmədoğlunun "Qətl günü" əsərində lap keçmişə, XX əsrin 30-cu illərinə aid dövrlər ayrılır. Üçüncü dövr isə müasirləşir və oxucunun yaşadığı dövrə yaxınlaşır. Burada bədii zamanın oxucu zamanı ilə yaxınlaşması baş verir. Yenə də iki cəhətə diqqət yetirmək lazım gəlir. Müəllifin nətqletməsi elə qurula bilər ki, oxucu özünü müəllif

mövqeyində hiss və ya təsəvvür edə bilər. Bu cəhət müəllif zamanının oxucu zamanı ilə tam üst-üstə salınmasına aparıb çıxarır. "Qətl günü" əsəri Yusif Səmədoğlu tərəfindən qələmə alınmışdır. Oxucu nəqledənin hadisələrin iştirakçısı və əsas qəhrəmanı olduğunu qəbul edirsə, onda oxucu fon bilikləri ilə Yusif Səmədoğlunun yaşadığı dövrə qayıtmış olur.

Bədii əsərin temporal strukturunda nəqletmənin əsas planı çox zaman mətnin başlanğıcında müəyyənləşir. Lakin müəllif hadisələrin xronoloji inkişafında kəsilmə və sıçrayışlara yol verilir. Qeyd etdityimiz kimi, bədii zaman üçün zaman oxunda irəli və geri sıçraışlar səjiyyəvidir. Bu sıçrayışları əldə etmək üçün müəllif müxtəlif vasitələrdən istifadə edir. Əsas vasitələr arsenalını dilin zamanlarının ifadə vasitələri təşkil edir. Təbii ki, digər vasitələr az deyildir. Y.Səmədoğlunun "Qətl günü" əsəri epiqrafları nəzərə almasaq belə başlanır:

"Hələ ulduzlar ***təkəmseyrəkdi*** - boz səmada bozumtul işıq ***vardı***, gah öləziyirdi, elə bil, sönmək ***istəyirdi***, gah da par-par parıldamağa **başlayırdı**. Külək hələ ***əsmirdi***, hərdən qoşa vələsin kəlləsində ləpədöyənin səsinə bənzər bir səs ***qopurdu***, deyirdin, yaxınlıqda dəniz var, amma bu səsdən adam ***diksinirdi***. Burada kim vardısa, bilirdi ki, çox-çox uzaqlarda, hardasa dünyanın o başında bir külək yatağından ***baş qaldırır***, Baba Kahanın zülmətində ***gərnəşir***, ordan çıxıb, ağır-ağır, sürünə-sürünə, batman ləngəri ilə torpaqda dərin şırımlar ***açırdı***, daş-qayanın gövdəsində uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa ***hazırlaşırdı***. Burada kim vardısa, hələ çox-çox uzaqlarda həmləyə hazırlaşan küləyin qarğışını eşidirdi: ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin!" (Səmədoğlu).

Əsərin növbəti abzası "İnsanlar küləkdən ***bezmişdi***, külək də insanlardan. Qoşa vələsdən uzaqlarda, dağ döşündən başlanan meşənin seyrəkliyində, ağacların arasında bir qoca canavar qulaqlarını şəkləyib ***şöngümüşdü***" cümlələri ilə başlanır.

Hər iki abzasda *idi* köməkçi feili ilə ifadə olunan mürəkkəb xəbər şəkli, mürəkkəb xəbərin hekayəsinin işlənməsini görürük. "İdi" köməkçi feili keçmiş zamandan sonra işləndikdə, bir tərəfdən şahidlik, digər tərəfdən işin keçmişdə icra olunub bitməsini və onun haqqında sonradan məlumat verildiyini bildirir. Beləliklə müəllifin istifadə etdiyi vasitələr zaman reqressiyası yaradır. Müəllif zamanı ilə hadisələr zamanı arasında fərq əmələ gəlir. Bəhs edilən əsərdə birinci ayırmadan sonrakı abzas isə belə başlanır:

"Kimdirsə, yaman deyib, atalar sözünə oxşayır: azar batmanla gələr, misqalla çıxar. Hə, düzdür, atalar sözüdür, Əbülqasımın topladığı

kitabda da var. Arvadın başı açılan kimi deyim ona, o kitabı versin mənə, yenə baxım”.

Bu abzas oxucunu müəllif zamanına qaytarır. Əsər boyu bu zaman sıçramaları bir-birini əvəz edir.

Beləliklə mətn zamanı haqqında müəyyən ümumiləşdirmələri aparmaq olur. Hər şeydən öncə, müasir linqvistikada mətn səviyyəsində zaman kateqoriyasının öyrənilməsinə müxtəlif yanaşma üsulları vardır. Bu tədqiqatlarda ümumi cəhət zaman kateqoriyasının mətnyaratma vasitələrinə aid edilməsidir. Mətndə zaman kateqoriyasının aşkara çıxarması bədii zamanla bağlıdır. Bədii zamanın şərtiliyi, onun real zamana uyğun gəlmədiyi qəbul olunur, mətn zamanının sistemliliyi şübhə doğurmur.

## ƏDƏBİYYAT:


1. Tahirov İ.M. Azərbaycan və ingilis dilində zaman kateqoriyası. Bakı, Nurlan, 2007.
2. Ахундов М.Д. Концепции пространства и времени: истоки, эволюция, перспективы. М.: Наука, 1982.
3. Бахтин М.М. Формы времени и хронотопа в романе // Вопросы литературы и эстетики: Исследования разных лет. М.: Худож. литература, 1975. с. 234-407.
4. Бондарко А.В. Введение. Аспектуальность. Временная локализованность. Таксис // Теория функциональной грамматики. Л.: Наука, 1987.
5. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Высшая школа,1981.
6. Гришунин А.Л. Исследовательские аспекты текстологии. М.: Наследие, 1998.
7. Дешериева Т.И. Лингвистический аспект категории времени в его отношении к физическому и философскому аспектам // Вопросы языкознания. 1975. № 2, с. 111-117.
8. Золотова Г.А. Категории времени и вида с точки зрения текста // Вопросы языкознания. 2002. № 3, с. 8-29.
9. Золотова Г.А., Онипенко П.К., Сидорова М.Ю. Коммуникативная грамматика русского языка. М.: Изд-во МГУ, 1998.
10. Иванов В.В. Категория времени в искусстве и культуре XX века // Ритм, пространство и время в литературе и искусстве. Л.: Наука, 1974. с. 39-65.

11. Левченко М.Н. Темпорально-локальная архитектоника художественных текстов различных жанров. Автореф. дис. ... д-ра филол. наук. М., 2003.
12. Лихачев Д.С. Поэтика древнерусской литературы // Избранные работы: в 3 т. Т. 1. Л.: Худож. лит., 1971, с. 235-241.
13. Сычков В.В. Языково-стилистическое выражение категории времени в творчестве Ш. Бодлера: Автореф. дис. … канд. филол. наук. Л., 1977.
14. Тарасова Е.В. О многоаспектной природе времени (время физическое, перцептуальное, языковое, художественное и лингвистическое) // Вестник Харьковского Университета. Харьков, 1989. № 339, с. 33-37.
15. Тураева З.Я. Категория времени. Время грамматическое и время художественное. М.: Высш. школа, 1979.
16. Федосова Т.В. Темпоральная структура текста как компонент идиостиля автора (на материале произведений К. Воннегута и Дж.Фаулза): Автореф. дис. ... канд. филол. наук. Горно-Алтайск, 2005.

**Гюлара Гулиева**

**Темпоральные особенности организации художественного текста**

**Резюме**

Проведенные лингвистические исследования текста дают основания для выделения временной категории текста. В исследованиях, связанных с художественным текстом, к «текстовому времени» и «художественному времени» осуществляется подход, как к разным понятиям. Здесь за основу берутся причины, вытекающие из вида и жанра текста. Художественное время – это время в художественном произведении. При определении лингвистического времени возникает необходимость проявлять отношение к таким разным понятиям, как «текстовое время», «авторское время», «время читателя», «контекстуальное время», «образное время», «сюжетное время», «события и время событий». Большинство из этих понятий определяется в результате классификации времени по различным критериям. В статье художественное время рассматривается в

качестве совокупности времен реализации отражаемых в произведении событий.

**Gulara Guliyeva**

**Temporal characteristics of the organization of literary text**

**Summary**

Linguistic research on the text attaches importance to the time category of the text. In researches related to artistic text, "text time" and "artistic time" are approached as different concepts. The reasons for the type and style of the text are based here. Artistic time is the time in literary work. In determining the linguistic time, it is necessary to be informed about different concepts such as "text time", "contextual time", " character time", " author time", "reader time", "story time", " event and events time". Most of these concepts are determined by artifacts as a result of various criteria according to various criteria. Artistic time is considered as collective times of events that depict the work created by the author.